BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ
*№3 Sosial-siyasi elmlər seriyası 2010*

## HÜQUQ

# VƏTƏNDAŞLARIN SOSİAL TƏMİNAT HÜQUQLARININ HƏYATA KEÇİRİLMƏSİNİN TƏMİNATLARI: ANLAYIŞI VƏ NÖVLƏRİ

**M.N.ƏLİYEV**
***Bakı Dövlət Universiteti***
***box.az de-leqe***

*Bu məqalədə vətəndaşların sosial təminat hüquqlarının həyata keçirilməsi təminatlarının anlayışları və növləri məsələsi araşdırılmışdır. Məqalədə vətəndaşların sosial təminat hüquqlarının həyata keçirilməsi təminatlarına onların bu sahədə hüquqlarının maneəsiz reallaşdırılmasını və müdafiəsini tənzim edən normaların məcmusu kimi anlayış verilir və təminatlar mürəkkəb hüquqi kateqoriya kimi təhlil edilir. Eyni zamanda məqalədə sosial təminat hüquqlarının iqtisadi (maddi), siyasi və təşkilati-hüquqi təminatları geniş şəkildə araşdırılır və onların müxtəlif aspektdən təsnifatı aparılır. Məqalədə sosial təminat mübahisələri üzrə ərizə və şikayətlərə baxılması üzrə ixtisaslaşmış məhkəmə sisteminin yaradılması əsaslandırılır.*

Sosial təminat hüquq elmində vətəndaşların hüquqlarının təminatları problemi ayrıca tədqiqatın predmeti kimi çıxış etməmişdir. Lakin son illər bu istiqamətdə nəzəri axtarışların aktuallığı əhəmiyyətli dərəcədə artmışdır. Eyni zamanda qeyd etmək lazımdır ki, sosial təminat hüququnun mənbələri arasında məsələn, AR Mülki Məcəlləsində olduğu kimi, vətəndaşların hüquqlarının təminatlarını, onların müdafiəsi üsullarını özündə əks etdirən sistemləşdirilmiş akt yoxdur.

Hüquq və azadlıqların təminatları dedikdə, onların faktiki surətdə həyata keçirilməsini və hərtərəfli mühafizəsini təmin edən şərt və vasitələr başa düşülür (3, 229).

Şəxsiyyətin statusunu müəyyən edən hüquq və vəzifələrin konstitusion normalarda əks etdirilməsi onların səmərəli şəkildə təmin edilməsində vacib rol oynayır. Belə meyarlar qismində bu və ya digər normanın və yaxud ictimai münasibətlərin xüsusi xarakteri və ya müstəsna əhəmiyyəti çıxış edir.

Müəlliflərdən L.D.Voyevodinin fikrincə, əsas hüquq və vəzifələrin konstitusion təbiəti aşağıdakılarda ifadə olunur: **birincisi**, şəxsiyyətin hüquqi vəziyyətinin əsaslarını müəyyən edən əsas hüquq və vəzifələr müstəqil dövlət-hüquq institutu kimi fərqləndirilir; **ikincisi**, bu hüquq və vəzifələr dövlət və vətəndaş arasında ən vacib, mühüm münasibətləri və əlaqəni şərtləndirir; **üçüncüsü**, bu hüquq və vəzifələr Konstitusiyada təsbit olunub (3, 227).

Göstərilən xüsusiyyətlər bu və ya digər normaların konstitusiyaya daxil edilib-edilməməsi barədə məsələnin həll edilməsi üçün əsas kimi götürülə bilər. Lakin bu zaman əhəmiyyətli dəyişikliklərin edilməsi zəruridir.

İnsanların əsas hüquq və vəzifələri konstitusiyada təsbit olunsa da, onların

əhəmiyyəti yalnız təsbit olunduğu hüquqi forma ilə deyil, onların faktiki mövcudluğu və həyata keçirilməsi üçün real şərtin olması ilə müəyyən edilir. Beləliklə, əsas insan hüquq və vəzifələrinin konstitusion xarakteri yalnız onların əsas qanunda mütləq təsbit olunması ilə bağlı formal təsəvvürlərlə əlaqələndirilmir. Bu və ya digər hüququn konstitusion xarakter daşıması şəxsiyyətin cəmiyyətdəki vəziyyətindən, onun sosial-siyasi və iqtisadi sistemlərdə oynadığı roldan asılıdır (9, 218). Bu həm də sosial təminat sferasına aiddir. B.V.Şetinin düzgün olaraq qeyd edir ki, ictimai fondlardan istifadə etmə bir sıra adi qanunlarla tənzim olunur və ancaq bu səbəb onun konstitusion mahiyyətini inkar etməyə əsas vermir (10, 69).

Cəmiyyətdə yaranmış real vəziyyəti əks etdirdiyi üçün həyata keçirilmə metoduna görə konstitusion hüquq və vəzifələr vətəndaşların subyektiv hüquq və vəzifələridir.

*Ümumiyyətlə,* ***vətəndaşların sosial təminat hüquqlarının həyata keçirilməsinin təminatları*** *dedikdə, sosial sığorta hadisələrinin maneəsiz və vaxtında qanunla müəyyən olunmuş həcmdə və şərtlərlə kompensasiya edilməsinə yönəlmiş vəsaitlər, sosial təminat növlərinin ödənilməsi üçün ayrılan xüsusi maddi vəsaitlər, təşkilati vasitələr və vətəndaşların sosial təminat sahəsində hüquqlarının reallaşdırılması və müdafiəsi münasibətlərini nizama salan hüquq normalarının məcmusu başa düşülür.* Təminatlar sistemi kifayət qədər mürəkkəb və çoxcəhətlidir. O, müxtəlif növ təminatları özündə əks etdirir. Sosial təminat hüquqlarının təminatlarını müxtəlif əsaslar üzrə təsnif etmək olar. Məsələn, xarakterindən və həyata keçirilmə sferasından asılı olaraq iqtisadi, siyasi və hüquqi təminatları fərqləndirmək olar.

Vətəndaşların sosial təminat hüquqlarının həyata keçirilməsi təminatları hüquq ədəbiyyatlarında həmişə müxtəlif cür göstərilsə də, vahid və ənənəvi fikir artıq formalaşmışdır. Belə ki, Y.M.Fogel sosial təminat hüququ çərçivəsində pensiya hüququnun həyata keçirilmə təminatlarını maddi və hüquqi təminatlara bölmüşdür (12, 26). Konstitusionalist alim P.P.Qluşenko isə təminatları iqtisadi, siyasi və hüquqi təminatlar kimi təsnifləşdirmişdir (5, 65). Y.V.Çuprova isə sosial hüquqların, o cümlədən pensiya hüquqlarının həyata keçirilməsi təminatlarını ənənəvi olaraq, maddi-hüquqi, təşkilati və prosessual-hüquqi təminatlara bölmüşdür (14, 22). Fikrimizcə, göstərilən bu mövqelər prinsipial şəkildə fərqlənməsə də, ikinci müəllifin fikri hal-hazırda vətəndaşların pensiya təminatı hüquqlarını təmin etmək məqsədilə dövlət tərəfindən tətbiq edilən tədbirlər məcmusunu özündə əks etdirdiyinə görə daha düzgün hesab edilməlidir.

Sosial təminat hüquqlarının iqtisadi (maddi) təminatları iqtisadi sistemin fəaliyyət imkanlarına uyğun olaraq vətəndaşların layiqli həyat səviyyəsini təmin edir və büdcədə və xüsusi fondlarda bu məqsəd üçün maliyyə resurslarının kifayət qədər olmasını nəzərdə tutur.

Siyasi təminatlar ictimai münasibətlərin hüquqi tənzimlənməsi əsaslarının işlənib hazırlanmasını və müəyyən edilməsini, sosial təminat sahəsində sosial əməkdaşlığın inkişaf etdirilməsini və s. əhatə edir. İqtisadi və siyasi təminatlar konstitusion, inzibati, büdcə və vergi qanunvericiliyində öz hüquqi təsbitini tapmalıdır.

Təşkilati-hüquqi təminatlar dedikdə, sosial təminat hüquqlarının realizəsi imkanının həyata keçirilməsini təmin edən, əsas funksiyası əmək pensiyalarının və sosial müavinətlərin təyin edilməsi və ödənilməsi olan dövlət sosial təminat orqanlarının (Azərbaycan Respublikasının ƏƏSMN, DSMF və s.) sistemi başa düşülür.

Vətəndaşlar tərəfindən qanunla təsbit olunmuş hüquqların həyata keçirilməsi

üçün dövlət və ya digər səlahiyyətli orqan tərəfindən müvafiq fəaliyyətin göstərilməsi zəruridir. Təşkilati-hüquqi təminatlardan danışarkən göstərmək lazımdır ki, hal-hazırda sosial təminat sistemində norma tətbiq edən orqanların fəaliyyətinin hüquqi tənzimlənməsi lazımi səviyyədə deyildir. Məsələn, bu çatışmazlıq pensiya təyin edilməsinin, həm də pensiya təyin etməkdən imtina etmənin və pensiyanın yenidən hesablanmasının dəqiq prosedurunun olmamasında ifadə olunur. Hətta əhalinin sosial müdafiəsi orqanlarının pensiya təyin olunmasından imtina edilməsi və ya onun yenidən hesablanması hallarında vətəndaşa vaxtında xəbər verilməsi və bu qərarlardan şikayət etmək qaydasının izah edilməsi kimi vəzifəsi qanunda təsbit olunmamışdır. «Əmək pensiyaları haqqında» qanunda pensiyanın təyin edilməsindən imtinanın müddəti göstərilsə də, pensiyaların yenidən hesablanması zamanı qərardan çıxarışın verilməsi müddəti müəyyən edilməmişdir.

Təminatlar sistemində hüquqi təminatlar xüsusilə mühüm rol oynayır. Hüquqi təminatlar dedikdə qanunvericiliklə müəyyən olunan elə təşkilati-hüquqi vasitələr başa düşülür ki, dövlət onların köməyi ilə vətəndaşların hüquqlarının həyata keçirilməsini təmin edir (8, 344). Hüquqi təminatlar sosial təminat hüququnun realizəsini təmin etmək və vətəndaşın və dövlətin bu sahədəki hüquqlarını müdafiə etmək üçün nəzərdə tutulmuş hüquq normalarının xüsusi kompleksidir. P.P.Qluşenkoya görə, hüquqi təminatlar hüquq və azadlıqların həyata keçirilməsini təmin edən hüquqi vasitələri əhatə edir. Onlara hər şeydən əvvəl, ümumi prinsip kimi hüquqların təminatının konstitusion təsbiti və hər bir hüququn konkret təminatı, habelə qanunçuluq rejimi aiddir (4, 15-35).

Fikrimizcə, bütün hüquqi təminatları iki qrupa bölmək olar:

- hüquqların istifadəsi təminatları (hüquq və azadlıqların hüquqauyğun realizəsini təmin edən hüquqi vasitələr);
- hüquqların müdafiəsi təminatları (onları müdafiə edən hüquqi vasitələr).

Şəxsiyyətin öz hüquqlarından hüquqauyğun istifadəsinin təminatları onun və cəmiyyətin həmin hüquqları realizə etmək üçün optimal sosial-hüquqi mühit yaratmağa yönəlmişdir və müdafiə təminatlarından fərqli olaraq, hüquq pozuntuları ilə birbaşa əlaqəli deyil. Bu qrupa hüquqi qüvvəni şərtləndirən normayaradıcılığı, hüquqların istifadəsinin hədləri, həcmi, əhəmiyyəti, maddi əsasları və həyata keçirilməsinin prosessual qaydaları (onların əlaqəli olduğu hüquqi faktlar da daxil olmaqla) daxil edilir.

Sosial təminat sistemində vətəndaşların hüquqlarının hüquqi təminatlarını məzmunundan asılı olaraq üç qrupa bölmək olar: maddi-hüquqi, prosedur və prosessual təminatlar. Maddi-hüquqi və prosedur təminatları sosial təminat hüququnun həyata keçirilməsinin təminatı kimi nəzərdən keçirmək lazımdır. Prosessual təminatlar göstərilən hüququn müdafiəsi və mühafizəsinin təminatlarının bir növü kimi çıxış etməklə, həm də nəzərdən keçirilən sferada nəzarəti, sosial təminat hüququnun pozulmasına görə məsuliyyəti özündə əks etdirir.

Birinci qrupa qanunda sosial sığorta hadisələrinin (sosial risklərin) siyahısının, təminat növlərinin və şərtlərinin və s. təsbit olunması aid edilir. Maddi-hüquqi təminatların reallaşdırılması qanunvericilik hakimiyyəti orqanı tərəfindən həyata keçirilir. Azərbaycan Respublikası 1995-ci il Konstitusiyasında dövlətin vətəndaşların layiqli həyat səviyyəsi qayğısına qalmasını bir vəzifə kimi elan etmiş (16-cı maddə), pensiyaların və sosial müavinətlərin minimum məbləğinin qanunla müəyyən edilməsi göstərilmişdir (38-ci maddə). Göründüyü kimi, Konstitusiyada pensiyaların və sosial

müavinətlərin minimum məbləğinin yaşayış səviyyəsi ilə əlaqəsi təsbit edilməmişdir. Yaxşı olardı ki, Azərbaycan Respublikasının konstitusiyasında nəinki pensiya təminatının, həm də bütövlükdə sosial təminatın minimum yaşayış səviyyəsinə uyğun müəyyən edilməsi təsbit olunaydı.

Təəssüflər olsun ki, əhalinin sosial müdafiəsi (sosial təminatı) sisteminin islahatının aparıldığı bir şəraitdə vətəndaşların əvvəllər əldə etdikləri hüquqların pozulması hallarına yol verilir. Bir tərəfdən, qanunvericilikdə vətəndaşların əvvəlki sosial müdafiə səviyyəsinin saxlanılması və mümkün qədər yüksəldilməsi, stabil hüquqi tənzimlənmənin və əhalinin qanunvericiliyə edilən dəyişikliklərə uyğunlaşmasının təmin edilməsi (xüsusilə, ictimai münasibətlərin müvəqqəti tənzimlənməsi vasitəsilə) yolu ilə vətəndaşların qanuna inamının möhkəmləndirilməsi təsbit edilir. Digər tərəfdən, sosial təminat qanunvericiliyində göstərilən prinsipial müddəaları pozan normalar öz əksini tapır. Bu halda aydındır ki, iqtisadi, hüquqi və siyasi təminatlar qarşılıqlı əlaqədə fəaliyyət göstərməlidir ki, vətəndaşlar demokratik institutlar - parlament seçkiləri və qanunvericilik hakimiyyəti orqanının fəaliyyətinə nəzarət vasitəsi ilə qanunların məzmununa təsir göstərmək imkanına malik olsunlar.

*Sosial təminat hüququnun həyata keçirilməsini təmin edən hüquqi təminatları aşağıdakı kimi də təsnif etmək olar:*

*a) sosial təminat növünün təyin və təqdim edilməsi zamanı sosial təminat hüququnun təminatı;*

*b) sosial təminat hüquq münasibətlərinin həyata keçirilməsi prosesində sosial təminat hüququnun təminatı;*

*c) sosial təminat növünün təqdim edilməsindən əsassız və qanunsuz imtina edilməsinin qarşısının alınması üzrə təminat.*

Göstərmək lazımdır ki, müasir dövrdə prosessual təminatlar daha geniş yayılmışdır. Buraya həm ümumhüquqi vasitələr (məsələn, məhkəmə müdafiəsi), həm də pozulmuş hüquqların təmin edilməsi və müdafiəsinin yalnız sosial təminat sferasında və ya onun ayrı-ayrı təşkilati-hüquqi formaları, məsələn, məcburi dövlət sosial sığortası çərçivəsində tətbiq olunan xüsusi üsulları (məsələn, mübahisələrin sosial sığorta üzrə komissiyalar tərəfindən həll edilməsi) aiddir. Sosial təminat hüquqlarının prosessual təminatları məhkəmə hakimiyyəti orqanları tərəfindən həyata keçirilir.

Sosial ödəmələrin (pensiyaların, sosial müavinətlərin, sosial yardımların) təqdim edilməməsi ilə bağlı iddialara baxarkən məhkəmə aşağıdakı məsələlərə diqqət yetirməlidir:

1. sosial ödəmələrin verilməsi üçün hansı əsaslar və səbəblər mövcud olmuşdur;
2. sosial müdafiə orqanı sosial ödəmənin verilməsinin dayandırılması haqqında qərarı hansı qaydada qəbul edə bilər;
3. sosial ödəmələrin verilməsinin nəticələri nədə ifadə olunur.

Eyni zamanda nəzərə alınmalıdır ki, sosial təminat hüquq münasibətlərinin xitam edilməsi qaydaları ilə yanaşı ayrı-ayrı kateqoriya vətəndaşlar üçün ödəmə şərtlərini və qaydalarını nəzərdə tutan bir sıra xüsusi hüquq normaları mövcuddur.

Məhkəmənin müdafiə funksiyası mübahisələrə məhkəmə tərəfindən baxılıb həll edilməsi prosesində həyata keçirilir. Məhkəmə praktikasının təhlili sosial təminat məsələləri üzrə ayrı-ayrı kateqoriya işlərə baxılması ilə bağlı məhkəmə orqanlarının hüquqtətbiqetmə fəaliyyətinin qanunauyğunluqlarını aşkara çıxarmağa imkan verir.

Məhkəmə praktikası müxtəlif hüquqtətbiqetmə aktları, qərardadları, habelə Azərbaycan Respublikası Ali Məhkəməsinin Plenumunun qərarları formasında ifadə

olunmuş və məhkəmə orqanlarının onlara həvalə olunmuş vəzifələrin icrası üzrə hüquqi fəaliyyətini özündə əks etdirir. Buna görə də hüquq elmində geniş mənada məhkəmə praktikası məhkəmə sisteminə daxil olan, mülki, əmək, sosial və digər kateqoriya işlərə baxılması yolu ilə ədalət mühakiməsinin həyata keçirilməsi məqsədi ilə fəaliyyət göstərən bütün məhkəmələrin fəaliyyəti və həmin fəaliyyətin bütün nəticələri kimi müəyyən edilir. Dar mənada məhkəmə praktikası məhkəmələrin hüquq normalarının tətbiq edilməsi üzrə fəaliyyətinin yalnız bir hissəsini - hüquq normasının mənasının və məzmununun açılması əsasında konkretləşdirici müddəaların işlənib hazırlanması ilə bağlı olan hissəsini ifadə edir. Dar mənada məhkəmə praktikası qanunun tətbiqi ilə bağlı məhkəmələrdə formalaşmış vahid rəyi ifadə edir və qanunverici tərəfindən sosial təminat haqqında qanunvericiliyin təkmilləşdirilməsində istifadə oluna bilər. Sosial təminat qanunvericiliyi ilə bu və ya digər münasibətlərin tənzimlənməsində boşluqları müəyyən edən və məhkəmə tərəfindən təklif edilən qanunun analogiyasının və sosial təminat hüququnun prinsiplərinin tətbiq edilməsi vasitəsi ilə onların aradan qaldırılması yollarını təsbit edən hüquqi müddəalar da sosial təminat haqqında qanunvericiliyin gələcək inkişafına mühüm təsir göstərir.

Sosial təminat hüququnun dövri surətdə sosial təminat üzrə münasibətlərin inkişaf tələblərindən geri qalmasını məhkəmə hüquq yaradıcılığının köməyi ilə aradan qaldırmaq olmaz. Bu, köhnəlmiş hüquq normalarının vaxtında başqaları ilə əvəz edilməsi və məhkəmə tərəfindən aşkara çıxarılan hüquqi boşluqların qanunvericilik orqanı tərəfindən qəbul edilən yeni qanunlarla aradan qaldırılması yolu ilə edilməlidir. Ona görə də məhkəmə sosial təminat məsələləri üzrə mübahisələri həll edərkən subyektiv hüquq və vəzifələrin yaradılması, dəyişdirilməsi və ya ləğv edilməsi baxımından heç bir norma yaradıcılığı funksiyası yerinə yetirmir. Məhkəmənin vəzifəsi real şəkildə mövcud olan, lakin əsassız surətdə inkar edilən və ya mübahisələndirilən hüquq və mənafeləri müdafiə etməkdən ibarətdir. Buna görə də məhkəmə praktikası hüquq normalarının həqiqiliyinin, düzgünlüyünün, onların səmərəliliyinin, bazar iqtisadiyyatının obyektiv tələblərinə uyğunluğunun meyarı kimi çıxış edir.

Məhkəmələr sosial təminat məsələləri üzrə mübahisələri həll edərkən həmçinin sosial təminat üzrə münasibətlərin hüquqi tənzimlənməsi sahəsində mövcud olan boşluqları, habelə sosial təminat hüquq normalarının Azərbaycan Respublikası Konstitusiyasının maddələrinə zidd olması hallarını aşkara çıxarır. Məhkəmələr sosial təminat məsələləri üzrə mübahisələrin aidiyyəti müəyyən edilərkən Azərbaycan Respublikası Konstitusiyasına əsaslanırlar.

Ümumiyyətlə, sosial təminat məsələləri üzrə mübahisələrə məhkəmə baxışı gedişində bir sıra ictimai əhəmiyyətli funksiyalar reallaşdırılır:

- konkret mübahisənin həll edilməsi;
- icra hakimiyyəti orqanlarının fəaliyyətinə məhkəmə nəzarəti;
- qüvvədə olan normativ hüquqi aktların keyfiyyətinin hüquq tətbiqetmə praktikası baxımından peşəkar qiymətləndirilməsi;
- həm qanunvericilik, həm də icra hakimiyyəti orqanları tərəfindən istifadə oluna bilən tövsiyələrin işlənib hazırlanması.

Beləliklə, sosial təminat məsələləri üzrə mübahisələrin məhkəmə qaydasında həll edilməsinin zəruriliyi aşağıdakılarla şərtlənir:

1. Dövlət hakimiyyəti sistemində məhkəmə hakimiyyətinin xüsusi yerinin olması;
2. Məhkəmə hakimiyyətinin müstəqilliyi;

3. Mübahisənin həlli prosesinin dəqiq şəkildə reqlamentləşdirilməsi.

Sosial təminat hüquqlarının məhkəmə müdafiəsi qanunla nəzərdə tutulmuş prosessual formalar çərçivəsində həyata keçirilir. Sosial təminat hüququnun subyekti kimi vətəndaşların hüquqlarının müdafiəsində Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi mühüm rol oynayır. Respublikamızda sosial sığorta sisteminin bərqərar eidilməsində bu institutun rolu əvəzedilməzdir. Buna ən bariz nümunə kimi «Vətəndaşların pensiya təminatı haqqında» Azərbaycan Respublikası Qanununun 109-cu maddəsinin birinci hissəsinin Azərbaycan Respublikası Konstitusiyasının 25, 38, 71-ci maddələrinə uyğunluğunun yoxlanılmasına dair» Azərbaycan Respublikası Konstitusiyası Məhkəməsinin 29 dekabr 1999-cu il tarixli Qərarını göstərmək olar.

Almaniyada «Sosial məhkəmələr haqqında» qanuna əsasən xüsusi məhkəmələr fəaliyyət göstərir (13, 19-20). Bu məhkəmələr ümumi hüquq sahəsində mübahisələrə: sosial sığorta haqqında işlərə, zorakı hərəkətlərdən zərər çəkmiş şəxslərin işlərinə, pensiya təminatı sahəsində mübahisələrlə bağlı işlərə və digər bu kimi mübahisələrə baxıb həll edirlər. Sosial məhkəmələr istehsalatda bədbəxt hadisə, peşə xəstəliyi və ya digər səbəblərdən sağlamlığa zərər vurulması və ya ölümün baş verməsi faktını müəyyən edirlər.

Almaniyada sosial məhkəmələr sistemi üç instansiyadan ibarətdir: sosial məhkəmələr (birinci instansiya), torpaq sosial məhkəmələri (ikinci instansiya), federal sosial məhkəmə, böyük senat (6 ictimai və 12 peşəkar hakimdən ibarətdir), sosial sığorta üzrə senat, işsizliyə görə sığorta üzrə senat, müharibə əlillərinin təminatı işləri üzrə senat, xəstəxana kassalarının üzvlərinin tibbi təminatı işləri üzrə senat, mədən fəhlələrinin sosial sığortası üzrə senat (ali instansiya).

Birinci instansiya məhkəməsi iddialar üzrə işlərə baxır. İkinci instansiya məhkəməsində apelyasiya icraatı həyata keçirilir. Federal sosial məhkəmə kasasiya instansiyası qismində işlərə baxır. Federal sosial məhkəmə həmçinin ayrı-ayrı kateqoriya işlərə birinci instansiya üzrə baxır (13, 17-20).

Böyük Britaniyada sosial sığorta işləri, sosial sığorta haqqında mübahisələr və s. üzrə inzibati tribunallar fəaliyyət göstərir (11, 276-279). Onlar məhkəmə orqanları olmamaqla peşəkar fəaliyyətin kifayət qədər məhdud sferalarında yaranan işlərə baxırlar. Buna baxmayaraq, tribunallara məhkəmələrin qəbul etdiyi qərarları qəbul etmək səlahiyyəti verilmişdir.

Nəzərdən keçirilən təcrübə perspektivdə müəyyən maraq doğurur. Lakin bu gün ölkəmizdə həmin təcrübənin tətbiqi hələ tezdir. Bu baxımdan mübahisələrə baxılması üzrə mövcud mexanizmlərin təkmilləşdirilməsini daha perspektivli hesab edirik. Gələcəkdə sosial məhkəmələr sistemi yaradılarkən əsas şərt onların müstəqilliyinin maksimum dərəcədə təmin edilməsidir. Göstərilən müddəa sosial təminat məsələləri üzrə mübahisələrə baxan ixtisaslaşmış məhkəmələrin hüquqi statusunu və məhkəmə sistemində yerini müəyyən edən normativ hüquqi aktlarda öz əksini tapmalıdır.

Müəlliflərdən M.S.Aslanov Azərbaycan Respublikasının məhkəmə sistemində ixtisaslaşmış məhkəmələrin yaradılmasını təklif edərək göstərir ki, ixtisaslaşmış məhkəmələrin yaradılması məhkəmə işlərinə daha keyfiyyətlə baxılmasını təmin edə bilər (1, 15). BƏT standartları ilə Azərbaycan Respublikası qanunvericiliyinin nisbətini tədqiq edən T.İ.Sadiq məhkəmə mübahisələrinin həll edilməsi üzrə ixtisaslaşmış məhkəmə orqanının yaradılmasını təklif edir (2, 29).

Sosial təminat məsələləri üzrə mübahisələrə baxılması və həll edilməsinin

məhkəmə mexanizminin təkmilləşdirilməsi baxımından qanunvericilikdə sosial təminat məsələləri ilə bağlı vətəndaşların şikayətlərinə (iddialarına) və sosial təminat üçün hüquqi əhəmiyyət kəsb edən faktların müəyyən edilməsinə dair ərizələrə 30 günlük maksimum müddət müəyyən edilməlidir. Əlbəttə ki, belə müddətlərin müəyyən edilməsi məhkəmələrin yüklənməsi ilə əlaqədar dərhal gözlənilən nəticəni verməyəcək, lakin göstərilən müddətləri azaltmağa kömək edəcək. İşlərə baxılması üzrə maksimal müddətlərin müəyyən edilməsinin zəruriliyi onunla şərtlənir ki, ayrı-ayrı qrup vətəndaşlar üçün sosial təminat yaşama vasitəsi mənbəyi (hətta bəzən yeganə mənbəyi) kimi çıxış edir. Mübahisəyə nə qədər gec baxılırsa, vətəndaş bir o qədər uzun müddət ərzində ehtiyacı olduğu sosial təminatı ala bilmir. E.V.Çuprova pensiya təminatının təqdim edilməsindən qanunsuz imtina edilməsi ilə bağlı vətəndaşa vurulmuş maddi və mənəvi zərərin əvəzinin tam həcmdə ödənilməsi ilə bağlı müddəanın qanunvericilikdə təsbit edilməsini təklif edir (14, 16). Sosial təminat maddi əsasa malik olduğundan onun istənilən konkret növü dəyər formasında ifadə oluna (qiymətləndirilə) bilər. Buna görə də sosial təminatı təqdim etməkdən əsassız imtina etməklə dövlət faktiki olaraq vətəndaşdan sosial təminatın konkret növünün dəyəri həcmində kredit almış olur. Buna görə də dövlət həmin kreditdən istifadə etdiyinə görə vətəndaşa faiz ödəməlidir. Hesab edirik ki, vətəndaşların sosial təminat sahəsində itkilərinin kompensasiyası məsələsinin həll edilməsi üçün Azərbaycan Respublikasının Mülki Məcəlləsində nəzərdə tutulmuş konstruksiya sosial təminatın təqdim edilməsi qaydasını tənzim edən normativ hüquqi aktlara daxil edilə bilər.

Sosial təminat məsələləri üzrə şikayət və ya iddia ərizələri və sosial təminat üçün hüquqi əhəmiyyət kəsb edən faktların müəyyən edilməsi ilə bağlı ərizələr verən vətəndaşlar məhkəmə xərclərindən, ilk növbədə isə dövlət rüsumundan azad edilməlidir. Bunun üçün «Dövlət rüsumu haqqında» Azərbaycan Respublikası Qanununa müvafiq dəyişiklik edilməlidir. Həmin qanuna aşağıdakı məzmunda yarımbənd əlavə edilməsini təklif edirik: «9.1.23. sosial təminat üzrə hüquq münasibətlərindən irəli gələn mübahisələrə məhkəmədə baxılan zaman iddiaçılar».

Müasir dövrdə vətəndaşların sosial hüquqlarının ümumi yurisdiksiyalı məhkəmələr tərəfindən müdafiəsinin səmərəliliyinin müəyyən qədər aşağı səviyyədə olması sosial təminat məsələləri ilə bağlı mübahisələrə baxılması üzrə ixtisaslaşdırılmış məhkəmələrin yaradılması məsələsinin aktuallığını artırır. Belə məhkəmələr bir sıra ölkələrdə mövcuddur və onların fəaliyyəti kifayət qədər yüksək qiymətləndirilir. Bu zaman mübahisələrə qısa müddət ərzində baxılır, daha sadə proseduralar tətbiq edilir. E.V.Çuprova təklif edir ki, təcili tədbir kimi mövcud məhkəmə sistemi daxilində hakimlərin ixtisaslaşdırılması həyata keçirilsin (14, 18). Əlbəttə, bu təklif real görünür, lakin nəzərə almaq lazımdır ki, hazırda «hüquqşünaslıq» ixtisası üzrə təhsil alan tələbələr vətəndaşların sosial hüquqlarının müdafiəsi üzrə işə hazır deyildirlər. Sosial təminat hüququ tədris fənni kimi dövlət təhsil standartlarına seçmə fənn kimi daxil edilmişdir. Bu, ona gətirib çıxarır ki, hakimlər və digər hüquq mühafizə orqanları əməkdaşları sosial qanunvericiliyi zəif mənimsəyirlər və nəticədə vətəndaşların sosial hüquqlarının həyata keçirilməsində və həmin məsələlərlə bağlı ixtisaslaşdırılmış hüquqi yardımın alınmasında müəyyən çətinliklər yaranır, vətəndaşlar məhkəmə müdafiəsi və ixtisaslaşmış hüquqi yardım almaq hüquqlarından dolğun şəkildə istifadə edə bilmirlər. Ona görə də hesab edirik ki, sosial təminat hüququ «hüquqşünaslıq» ixtisası üzrə dövlət təhsil standartlarına məcburi fənn kimi daxil edilməli və universitetlərdə və digər ali təhsil müəssisələrində bu fənnin tədrisi yeniləşməlidir. Gələcək pers-

pektivdə sosial qanunvericiliyin inkişafı və mürəkkəbləşməsi qaçılmazdır, bu baxımdan göstərilən ixtisas çərçivəsində «sosial hüquq»un ayrılması əhəmiyyətli ola bilər. Sosial təminat hüququ hakimlərin, prokurorluq işçilərinin ixtisasartırma kurslarının tədris planlarına daxil edilməlidir. Bu, sosial məhkəmələr yaradılan zaman orada işləyəcək kadr ehtiyatlarını əvvəlcədən formalaşdırılmağa imkan verir.

Beləliklə, vətəndaşların sosial təminat hüquqlarının həyata keçirilməsinin təminatlarının səmərəliliyinin yüksəldilməsi baxımından dövlət hakimiyyətinin bütün qollarının – qanunvericilik, icra və məhkəmə hakimiyyətlərinin qarşılıqlı əlaqəsi zəruridir. Məhz dövlət sosial təminat sistemində vəzifəli subyekt kimi çıxış edir, hüquqi təminatlar siyasi təminatlarla möhkəmləndirilməlidir, xüsusən sosial əməkdaşlıq institutlarının inkişaf etdirilməsi, vətəndaş cəmiyyətinin dövlətin fəaliyyətinə nəzarətini təmin edən mexanizmlərin formalaşdırılması zəruridir.

## ƏDƏBİYYAT


1. Aslanov M.S. Azərbaycanla inzibati ədliyyə. Hüq. elm. nam. … diss. avtoref. Bakı, 2005, 22 s.
2. Sadiq T.İ. Beynəlxalq Əmək Təşkilatı standartları və Azərbaycan Respublikasının qanunvericiliyi: qarşılıqlı nisbət məsələləri. Hüq. elm. nam. diss… avtoref. Bakı, 2007, 32 s.
3. Воеводин Л.Д. Юридический статус личности в России: Учебное пособие. М.: ИНФРА-М – НОРМА, 1997, 264 с.
4. Глущенко П.П. Военное право: Учебник. СПб.: Издательство Михайлова В.А., 2004, 318 с.
5. Глущенко П.П. Социально-правовая защита конституционных прав и свобод граждан (Теория и практика). СПб.: Издательство Михайлова В. А., 1998, 224 с.
6. Глущенко П.П., Лукичев Ю.А. Военное право: Учебное пособие. СПб.: Издательство Михайлова В.А., 1996, 298 с.
7. Государственное право СССР / Под ред. С.С. Кравчука. М.: Юридическая литература, 1967, 298 с.
8. Курс российского трудового права / Под ред. Е.Б. Хохлова. Т.1. СПб.: СПбГУ, 1996, 573 с.
9. Проблемы советского социалистического государства и права в современный период. Некотороые теоретические вопросы / Под ред. В. М. Чхиквадзе. М.: Наука, 1969, 292 с.
10. Проблемы теории советского государственного права. М.: Юридическая литература, 1969, 214 с.
11. Романов А. К. Правовая система Англии: Учебное пособие. М.: Дело, 2000, 368 с.
12. Фогель Я.М. Право на пенсию и его гарантии. М.: Юридическая литература, 1972, 180 с.
13. Черемин М.А. Приказное производство в российском гражданском процессе. М.: Городец, 2006, 146 с.
14. Чупрова Е.В. Право на пенсионное обеспечение и его реализация в условиях рыночной экономики. Автореф. дисс… канд. юрид. наук. М.: 1999, 28 с.


## ГАРАНТИИ ОСУЩЕСТВЛЕНИЯ ПРАВ ГРАЖДАН В СФЕРЕ СОЦИАЛЬНОГО ОБЕСПЕЧЕНИЯ ГРАЖДАН: ПОНЯТИЕ И ВИДЫ


**М.Н.АЛИЕВ**


### РЕЗЮМЕ


С точки зрения усиления эффективности гарантий осуществления прав граждан в сфере социального обеспечения граждан необходимо взаимоотношение всех ветвей государственной власти - законодательной, исполнительной и судебной власти. Именно государство выступает обязанным субъектом в системе социального обеспечения, пра-

вовые гарантии должны усиляться политическими гарантиями, особенно необходимо развитие институтов социального партнерства, формирование механизмов обеспечивающих контроль гражданского общества над деятельностью государства.

## GUARANTEES FOR THE REALIZATION OF THE RIGHTS OF CITIZENS FOR SOCIAL SECURITY: THE CONCEPT AND KINDS

**M.N.ALIYEV**

**SUMMARY**

The efficiency of guarantees for the realization of the rights of citizens for social security necessitates the interrelation of all the bodies of the government - legislative, executive and judicial authorities. The state acts as the obliged subject in the system of social security, legal guarantees should amplify political guarantees, development of institutes of social partnership, formation of mechanisms providing the control of a civil society over the activity of the state are of grave importance.